# ORTA MƏKTƏBDƏ ŞAGİRDLƏRİN KİMYA BİLİKLƏRİNİ TƏTBİQ ETMƏK BACARIQLARININ FORMALAŞMASI

**A.C.Quliyev**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bilik kimya təliminin məzmununun nüvəsini təşkil edir. Bilik əsasında şagirdlərdə bacarıq və vərdişlər, əqli və praktik fəaliyyət formalaşır. Kimya bilikləri və onların mənimsənilməsi metodunun düzgün seçilməsi şagirdlərin əqli inkişafının göstəricisidir. Bilik insanın dünyagörüşünün tərkib hissəsi olmaqla onun reallığa münasibətini, mənəvi baxışlarını və inamını, şəxsiyyətin iradi əlamətlərini böyük ölçüdə təyin edir.

Biliyin göstərilən funksiyaları müəllimin qaşısında aşağıdaki vəzifələri qoyur:
- biliyi dondurulmuş sabit formadan şagirdıin dərketmə fəallığı prosesinə keçirmək;
- biliyi ifadə formasından şagirdin təfəkkür fəaliyyətinin məzmununa çevirmək;
- biliyi insanı bir şəxsiyyət və fəaliyyət obyekti kimi formalaşdıran vasitə etmək.

Elmi biliklər ətraf aləm və onun inkişafının qanunauyğunluqlarını təcrübi və nəzəri formada əks etdirən sistemdir. Elmi biliklər təlimə sistemli təşkil olunmuş metodlarla verilir. Kimya elminə dair biliklərin mənimsənilməsi həm fəndaxili və həm də digər fənlərarası əlaqələr vasitəsilə öyrədilə bilər. Kimya təimində biliklər müxtəlif vasitələrlə verilə bilər:
- kimyadan dərsliklər və metodik vəsaitlər
- təlim testləri;
- təlim məsələləri.

Kimya biliyi müxtəlif keyfiyyətlərdə ola bilər:
sistemli; ümumiləşmiş; dərk olunan; yığcam; təsviri; tamlı; davamlı;

Təlimin əsas vəzifələrindən biri şagirdlərin kimya dərslərində qazandıqları bilikləri tətbiq etmək bacarıqlarının formalaşmasıdır. Şagirdlərin biliklərini tətbiq etmək bacarıqlarının səviyyəsi onların təlim materialını necə mənimsədiklərini müəyyən etməyə imkan verir.

Müəllimlərin iş təcrübəsi ilə tanışlıqdan məlum olur ki, bir çox hallarda müəllimlər yalnız təlim materialını şagirdləirə öyrətməklə kifayətlənirlər. Bəzi hallarda öyrətdikləri materialın şagirdlərin müxtəlif şəraitdə necə tətbiq edəcəklərinə əhəmiyyət verilmir. Şagirdlərin öyrəndikləri bilikləri tətbiq etmək bacarıqlarının inkişaf etdirilməsi sistemli xarakter almalıdır. Müəllim şagirdlərin biliklərini tətbiq etmək bacarıqlarını formalaşmasını yekunlaşdırıcı dərsdə deyil, təlim materialının öyrədilməsi prosesində həyata keçirməlidir. Biliyi tətbiq etmək

bacarıqlarının formalaşması və inkişaf etdirlməsi üçün seçilən çalışma və məsələlər tədricən çənləşdirilməldir. Şagirdlərə biliyi tətbiq etmək bacarığının öyrədilməsi üç mərhələdə aparıla bilər.

1. Biliyi tətbiq etmək bacarığının formalaşmasının ilkin mərhələsi.

Bu mərhələdə şagirdlər biliyi yadda saxlamağa çalışırlar.

2. Biliyi tətbiq etmək bacarığının təkmilləşdirilməsi.

Bacarığın təkmilləşməsi mərhələsində şagirdlər təlim materialını daha dərindən anlamağa çalışırlar. Biliyin yaddaşda möhkəmlənməsi şagirdlərdə biliyi tətbiq etmək bacarığının formalaşmasına şərait yaradır..

3. Biliyi tətbiq etmək bacarığına malik olmaq.

Bu mərhələ şagirdlərin biliyinin və fəallığının inkişafı ilə xarakterizə olunur. Artıq şagirdlər biliklərini müstəqil olaraq müxtəlif şəraitdə tətbiq etməyi bacarırlar.

Şagirdlərin kimya biliklərini müstəqil və şüurlu şəkildə tətbiq etmələrinin səviyyəsi verilmiş məsələni müəllimin köməyi olmadan həll etmələri ilə müəyyən olunur. Təlim prosesində şagirdlərin biliyini tətbiq etmək bacarıqlarının daha yüksək səviyyədə olmasına nail olmaq üçün çətinlik dərəcəsi tədricən artan tabşırıqlardan istifadə etmək olar.

Şagirdlərin kimya biliklərini tətbiq etmək bacarıqlarının inkişafı müxtəlif şəraitdə reallaşır. Bunlara kitab üzərində iş, hesablama və eksperimental məsələlərin həlli, laboratoriya və praktik işlərin icrası və s. təlim fəaliyyəti aiddir. Dərslik üzərində işləmək bacarığı şagirdin dərslikdə mövzunun yerini tapmaqla deyil, mıvzunun məzmununu orada verilən sxem və cədvəllərdən istifadə etməklə anlamaq bacarığı nəzərdə tutulur.

Kimya məsələlərinin həllində şagirdin biliyini tətbiq etmək bacarığının formalaşması onun məsələni həll etməyin səmərəli yolunu tapması və öz fəaliyyətini müstəqil olaraq yazılı və ya şifahi formada ifadə etməsi ilə ölçülür. Şagirdin kimya biliklərini eksperimental məsələlərin həllində tətbiq etmək bacarığının formalaşması onun kimya eksperimentini təhlükəsiz və səhvə yol vermədən icra etməsi ilə müəyyən olunur.

Kimya tədrisində şagirdlərdə aşağıda qeyd olunan əsas bacarıqlar formalaşdırılmalıdır:

- biliyi ( faktlar, anlayışlar, qanunlar nəzəriyyələr) tətbiq etmək;
- kimya məsələlərini həll etmək;
- kimya eksperimentini icra etmək.

Qeyd olunan xüsusi bacarıqlardan başka kimya tədrisində şagirdlər üçün zəruri olan vərdişlərndə formalaşması həyata keçrilməlidir. Bu tip vərişlərə aşağıdakılar aiddir:

- kitabdan istifadə etmək bacarığı (kimya dərsliyi, məsələ və çalışma kitabı, kimyadan oxu kitabı, sorğu kitabları);

- fikrini yazılı və ya şifahi formada ifadə etmək.(məsələn hesablama məsələlərinin həlli, aparılan kimya eksperimentinin izahı).
- kimya kabinetində, sinif otağında, kollektivdə işləmək qaydalarına əməl etmək bacarığı. Buraya həmçinin kimyəvi maddələr və avadanlıqlarla davranmaq bacarıqları da daxildir.
- praktik bacarıq (sadə cihaz və modelləri quraşdırmaq, sxemlər, cədvəllər, qrafiklər və s. hazırlamaq)

Kimya tədrisində şagirdlərin biliklərini tətbiq etmək bacarıqlarnın formalaşması və inkişafı VII - XI siniflərdə ardıcıl olaraq davam edir. Şagirdlərdə qeyd olunan bacarıkların formalaşmasının keyfiyyəti onlarda kimya biliklərinin doğruluğu, tamlığı və davamlı olmasından asılıdır.

Orta məktəbdə şagirdlərin kimya biliklərini ümumiləşdirmək və sistemləşdirmək bacarıqlarının olması onların təfəkkür fəaliyyətinin inkişafına kömək edir. Biliyin ümumiləşdirilməsi təfəkkürün mürəkkəb proseslərindən biridir. Burada şagirdlin dərketmə fəaliyyəti müəyyən bilik obyektinin (məsələn, maddələr, və ya hadisələr qrupu) daha ümumi və xarakter əlamətini müəyyən etməyə istiqamətlənir. Bu biliyin ümumiləşdirilməsinin birnci mərhələsidir. Müəyyən olunmuş əlamətlər əsasında maddələr arasında mövcud əlaqələr müəyyən olunur (fəaliyyətin ikinci mərhələsi). Öyrənilən maddələr və ya hadisələrə aid olan ümumi nəticə çıxarılır, müddəa irəli sürülür (fəaliyyətin üçüncü mərhələsi).

Biliyin ümumiləşməsi prosesi təfəkkür fəaliyyətinin müxtəlif növləri ilə sıx əlaqədə olur: analiz, sintez, müqayisə, mücərrədləşdirmə, səbəb-nəticə əlaqələri qurmaq, təsnifat, sistemləşdirmə və s. Təlim prosesində şagirdlərin göstərilən üsullardan istifadə etmək bacarığının formalaşması onlrın müxtəlif maddələrin (və ya hadisələrin) əsas fərqli əlamətlərinin müəyyən olunmasına və nəticədə biliyin ümumiləşməsinə şərait yaranır.

Şagirdlərin kimya bilklərini sistemləşdirmək bacarıqlarının inkişaf etdirlməsi onların kimyəvi anlayışlar, qanunlar və nəzəriyyələr arasında mövcud əlaqələrə dair biliklərini dərinləşdirir.

Burada nümunə olaraq VIII sinifin kimya kursunda “Elektrolitik dissosiasiya nəzəriyyəsi” mövzusunun tədisində şagirdlərin öyrəndikləri biliklər və onların əsasında şagirdlərdə formalaşan bacarıq və vərdişlər verilir.

*Mövzunun tədrisində şagirdlərin öyrəndikləri əsas biliklər:*

1) suda maddənin elektrolitik dissosiasiyasının mexanizmi;
2) ionların hidratlaşması anlayışı;
3) disosiasiya dərəcəsi və ona təsir edən amillər;
4) qüvvətli və zəif elektrolitlər anlayəşları;
5) element atomları və ionlarının quruluşu və xassələrinin fərqi;
6) elektrolit məhlullarında ion mübadilə reaksiyalarının mexanizmi.İon

mübadilə reaksiyalarının sona qədər getməsini təmin edən şərait;

7) ionitlər haqqında ilk bilik;

8) duzların hidrolizi anlayışının duzların ionları ilə suyun ionları arasında gedən mübadilə reaksiyasının xüsusi halının olması;

9) turşular, əsaslar və duzların xassələrinin elektrolitik dissosiasiya nəzəriyyəsi əsasında öyrənilməsi;

10) ion mübadilə reaksiyalaının oksiddləşmə-reduksiya raksiyalarından fərqi.

*Elektrolitlərin dissosiasiyasına dair bilikləri tətbiq etməklə şagirdlərin malik ola biləcəkləri əsas bacarıq və vərdişlər:*

1) maddələrin məhlullarında və ərintilərində elektrolitik dissosiasiyasının təmliklərini tərtib etmək;

2) ion mübadilə reaksiyalarının molekulyar, tam və qısa formada tənliklərinitərtib etmək;

3) elektrolit məhlullarının reaksiyalarını (neytral, turşu, əsas) onların kimyəvi tərkibinə görə və indikatorlar vasitəsi ilə təyin etmək;

4) maddələrin elektrolitik dissosiasiya dərəcəsini artırmaq və ya azaltmaq.

Məhluldan istənilən hər hansı ionu ayırmaq;

5) elektrolitik dissosiasiya nəzəriyyəsini praktik məqsədlər üçün istifadə etmək;

6) müxtəlif məsələləri həll etmək:

- elektrolitik dissosiasiya dərəcəsi əsasında məhlulda ionların qatılığını təyin etmək;
- elektrolit məhlullarınada ionlar və və molekulların qatılıqlarına görə elektrolitik dissosiasiya dərəcəsini təyin etmək;
- elektrolit məhlullarının mühitini təyin etmək.

*Elektrolitlərin dissosiasiyasına dair biliklər əsaında şagirdlərin tədris-tədqiqat fəaliyyətində formalaşan əsas bacarıqlar:*

1) tədqiqat üçün zəruri eksperiment qoymağı bacarmaq;

2) eksperimentin aparılması üçün şəraiti dəqiq müəyyən etmək bacarığı;

3) eksperimentdən alınan məlumatı ümumi əlamətlərinə görə təsvir və təsnif etmək bacarığı;

4) eksperimental və nəzəri materialı umumiləşdirmək əsaında qanunauyğınluğu aşkar etmək bacarığı;

5) ümümiləşdirilmiş nəticələri müstəqil formalaşdırmaq və işçi fərziyə qurmağı bacarmaq;

6) işçi fərziyədən istifadə etməklə qanunauyğunluğu izah etmək bacarığı;

7) biliyi praktik məsələlərin həllinə tətbiq etmək bacarığı.

*Elektrolitlərin dissosiasiyasına dair biliklər əsaında şagirdlərdə formalaşan əsas əqli fəaliyyətlər:*

analiz; müqayisə, analogiya; təsnifat; sistemləşdirmə; sintez, ümumiləşdirmə.

Orta məktəbin kimya kurslarında (xüsusilə də IX-XI siniflərin) şagirdlər kimyanın qanunları və nəzəriyyələrinə dair bilikləri kimyəvi maddələrin tərkibi, quruluşu və xassələri arasında qanunauyğun əlaqələrin müəyyən olnmasına tətbiq etməklə onlarda kimya biliklərini ümümiləşdirmək və sistemləşdirmək bacarıqları formalaşır. Məsələn, doqquzuncu sinifin kimya kursunda şagirdlər Dövri qanun, kimyəvi elementlərin dövri sistemi və atomun quruluşuna dair biliklərini tətbiq etməklə IVA qrupu elementlərinin ümumi xassələrini onların eyni qrupda yerləş-mələrinin səbəbini izah edirlər. Bu elementlərin xarakterik xassələrini müqayisə etməklə onların metallar və ya qeyri metallara aid olmaları haqqında ümumi nəticə çıxarırlar. Beləliklə, şagirdlərdə IVAqrupu elementləri və onların mühüm birləş-mələrinin tərkibi və xassələrinə dair bilikləri ümumiləşdirmək və sistemləşdirirmək bacarıqları formalaşır. Şakirdlərin kimya biliklərini ümumiləşdirmək və sistemləşdirmək bacarıqlarının formalaşası və inkişafı kimya kursunun digər mövzularında, həmçinin X və XI siniflərin kimya kurslarında davam edir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. A.C.Quliyev, T.A.Vəliyeva. Orta məktəbdə kimyadan praktik işlərin aparılması prosesində şagirdlərdə kimya biliklərinin formalaşması. Kimya məktəbdə, №1, Bakı, 2018.
2. M.M.Abbasov, A.H.Əliyev. Kimya tədrisində müasir təlim texnologiyaları, Kimya məktəbdə, №1, Bakı, 2009.
3. Э.Г.Золотников. Химический эксперимент в условиях развивающего обучения. Химия в школе, 2001, №1.
4. М.В.Зуева. Развитие учащихся при обучении химии. Изд. «Просвещение», Москва ,1978.
5. М.В.Зуева. Обучение учащихся применеию знаний по химии. Изд. «Просвещение», Москва. 1987.
6. О.С. Зайцев. Практическая методика обучения химии в средней и высшей школе: Учебник. – М.: Издательство КАРТЭК, 2012. – 470 с.

***А.Д.Кулиев***

**Формирование умений у учащихся применения знаний по химии в средней школе**

**РЕЗЮМЕ**

В данной статье умение учащихся применять знания рассматривается как деятельность, основанная на использовании обобщенных знаний при выполнении учебных заданий. Самостоятельность действий учащихся свидетельствует о сформированности у них этого умения.

***A.J.Guliyev***

**The formation of skills in students applying knowledge in chemistry in high school**

**SUMMARY**

In this article, the ability of students to apply knowledge is considered as an activity based on the use of generalized knowledge in the performance of educational tasks. The independence of students' actions indicates the formation of this skill in them.

**Açar sözlər:** bilik, bacarıq, əqli fəaliyyət, tətbiq etmək.

**Ключевые слова:** знания, умение, умственная деятельность, применять.

**Key words:** knowledge, skill, mental activity, apply.